# Azərbaycan Gömrük Xidmətinin sərhədkeçmə vaxtının ölçülməsi layihəsi Qırğızıstan və Tacikistanda öyrənilib





Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı Ümumdünya Gömrük Təşkilatının tövsiyəsi ilə Azərbaycan Gömrük Xidməti tərəfindən həyata keçirilmiş “Mal və nəqliyyat vasitələrinin buraxılış vaxtının ölçülməsi” layihəsinin Mərkəzi Asiya ölkələrində tətbiqini tövsiyə etmişdir. Dövlət Gömrük Komitəsi Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi gömrük xidməti general-mayoru İqbal Babayev qezetimizin əməkdaşı ilə söhbətində bunu Azərbaycan gömrüyünün növbəti önəmli uğurlarından biri kimi dəyərləndirdi.

İ.Babayev vurğuladı ki, son illər Azərbaycanın iqtisadi, siyasi, mədəni və digər sahələrdə əldə etdiyi uğurlar gömrük xidmətindən də yan keçməyib. Müstəqilliyimizin ilk illərində bütün sahələrdə yaranan durğunluq ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dinamik inkişafla əvəz olundu: “Ulu öndər respublikamızın iqtisadi təhlükəsizliyinin təmin olunması və inkişafı baxımından gömrük orqanları qarşısında da strateji vəzifələr qoydu, ölkənin gömrük siyasətinin konturlarını müəyyənləşdirdi. Prezident İlham Əliyevin rəhbərliyi altında isə gömrük orqanlarının işinin daha da səmərəli təşkili, müasir texnologiyaların tətbiqi, gömrük əməkdaşlarının potensialının gücləndirilməsi, gömrük-keçid məntəqələrində infrastrukturun müasir tələblər səviyyəsində qurulması siyasəti uğurla davam etdirildi. Dövlət başçısının uzaqgörən siyasətinin, diqqət və qayğısının nəticəsi olaraq tarixi İpək yolu üzərində yerləşən Azərbaycan bu gün beynəlxalq ticarət zəncirinin mühüm halqalarından biri kimi Şimal-Cənub, Şərq-Qərb dəhlizləri vasitəsilə yüklərin səmərəli və vaxtında daşınmasında mühüm rol oynayır. Belə ki, hazırda dünyada gedən qloballaşma siyasətinin fonunda ölkələri, beynəlxalq təşkilatları düşündürən vacib məsələlərdən biri beynəlxalq ticarət zəncirinin davamlılığının, intensivliyinin təmin olunması və asanlaşdırılmasıdır”.

Bu sahədə ölkəmizin gömrük orqanlarının da üzərinə düşən vəzifənin yerinə yetirilməsi məqsədilə mühüm addımlar atıldığını deyən DGK rəsmisi gömrük işinin təşkilində innovasiya texnologiyalarına geniş yer verilməsinin idxal-ixrac əməliyyatlarının və yükdaşımaların sürətləndirilməsi və asanlaşdırılmasında mühüm rol oynayan amil olduğunu söylədi. Dövlət Gömrük Komitəsi tərəfindən təşkil edilən “Elektron gömrük xidmətləri”, eləcə də yaxın zamanlarda tətbiq ediləcək və biznes-gömrük əməkdaşlığında mühüm addımlardan biri hesab olunan elektron bəyannamə sistemi bu istiqamətdə atılan mühüm addımlardır. Azərbaycan Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanmış “Mal və nəqliyyat vasitələrinin buraxılış vaxtının ölçülməsi” (TRS) layihəsinin Azərbaycan modeli isə analoqları ilə müqayisədə ən mütərəqqi hesab olunur. Bu layihə Gömrük Xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin (VAİS) bir komponentidir və bu modelin ən üstün tərəflərindən biri mal və nəqliyyat vasitələrinin sərhəddən keçidi zamanı insan amilinin sıfıra endirilməsidir ki, bu da şəffaflığın tam təminatına imkan verir. Belə ki, mal və ya nəqliyyat vasitəsi sərhəd gömrük ərazisinə daxil olduğu andan sahibinə təhvil verilənə qədər - bütün gömrük prosedurlarının başlanma və bitmə vaxtları avtomatik qeydə alınaraq xüsusi hazırlanan proqram vasitəsilə texniki avadanlıqlarla nəzarət olunur. Nəticədə sahibkarın ölkəyə idxal etdiyi mal və nəqliyyat vasitələrinin gömrük tənzimlənməsi proseslərinə nə qədər vaxt sərf etdiyi müəyyən edilir”.

İ.Babayevin sözlərinə görə, 2015-ci ilin əvvəlində ÜGT-nin Potensialın Gücləndirilməsi Komitəsinin rəhbəri Azərbaycanda bu sahədə araşdırmalar aparıb və Azərbaycan modeli haqqında digər üzv ölkələrin də məlumatlandırılmasına dair qərar verib: “Bu məqsədlə Ümumdünya Gömrük Təşkilatının rəhbərliyi Azərbaycan nümayəndə heyətini 2015-ci il iyunun 11-13 tarixlərində Brüsseldə keçirilən və 170 üzv ölkənin iştirak etdiyi ÜGT Şurasının 125/126-cı sessiyalarına dəvət edib. Azərbaycan nümayəndə heyəti yığıncaqda TRS layihəsi barədə təqdimatla çıxış edib və Ümumdünya Gömrük Təşkilatı bu modelin digər üzv ölkələrdə də tətbiq edilməsini tövsiyə edib”.

Baş idarə rəisi onu da bildirdi ki, “Mal və nəqliyyat vasitələrinin buraxılış vaxtının ölçülməsi”nin Azərbaycan modeli dünyanın bir sıra ölkələrində müxtəlif sahələr üzrə layihələr həyata keçirən nüfuzlu Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GİZ) da diqqətini çəkib: “2015-ci il 21-22 may tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti VIII Astana İqtisadi Forumuna qatılıb və tədbirdə Azərbaycan nümayəndə heyətinin rəhbəri İ.Babayev “Mal və nəqliyyat vasitələrinin buraxılış vaxtının ölçülməsi” layihəsi barədə təqdimatla çıxış edib. Bu təqdimat forumda iştirak edən və hazırda “Mərkəzi Asiya ölkələrində regional ticarətə yardım” layihəsini həyata keçirən Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı, eləcə də sözügedən ölkələrin gömrük xidmətləri nümayəndələrinin marağına səbəb olub. Təşkilatın bölgədə həyata keçirdiyi layihənin məqsədi beynəlxalq ticarətdə texniki maneələri aradan qaldıracaq regional platformanın hazırlanmasıdır. Bununla da Azərbaycan modelini bəyənən Almaniya təşkilatı onun regionda da tətbiqinin uğurlu nəticələr verəcəyi qənaətinə gəlib və bunu region ölkələrinə tövsiyə edib. Nəhayət, Azərbaycan modelinin tətbiqində maraqlı olan Qırğızıstan və Tacikistan gömrük xidmətləri ölkələrinin sərhədlərində bu istiqamətdə əsaslı araşdırma aparılması məqsədilə Azərbaycan gömrük mütəxəssislərinin dəvət olunması üçün Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatına müraciət ediblər. Öz növbəsində, Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəhbərliyinə rəsmi qaydada müraciət edərək Bişkek və Düşənbə şəhərlərində gömrük və digər dövlət orqanları əməkdaşlarına təlim keçirilməsi, Qırğızıstan-Tacikistan sərhədində monitorinq aparılması və dövlət nəzarət orqanlarının araşdırmalar zamanı sərhəddə buraxılış göstəricilərinin yaxşılaşdırılması üzrə tövsiyələrlə təmin edilməsi üçün Azərbaycan nümayəndə heyətinin Qırğızıstan və Tacikistana səfərinə icazə verilməsini xahiş edib. Buna cavab olaraq Dövlət Gömrük Komitəsinin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi kimi mən - İqbal Babayev və idarə rəisinin birinci müavini Anar Süleymanov 2015-ci il 6-12 noyabr tarixlərində Qırğızıstan və Tacikistan respublikalarına səfər etdik”.

Səfər barədə məlumat verən İ.Babayev bildirdi ki, Azərbaycan nümayəndə heyəti öncə Tacikistanda bu ölkənin gömrük xidməti sədrinin müavini A.Tursunzado ilə görüşdü. Görüşdə Azərbaycan Gömrük Xidmətinin son illər əldə etdiyi nailiyyətlər, gömrük işinin təşkilində müasir texnologiyaların tətbiqi və digər məsələlərə dair qarşılıqlı fikir mübadiləsi aparıldı. Bir gün sonra isə Azərbaycan nümayəndə heyəti dost ölkənin gömrük orqanları, Nəqliyyat Nazirliyi, fitosanitar xidmət və digər dövlət qurumlarının əməkdaşları, sahibkarlar üçün “Mal və nəqliyyat vasitələrinin buraxılış vaxtının ölçülməsi” modeli barədə treninq keçirdi. Treninqdə “Gömrük sahəsində innovasiya layihələrinin tətbiqi prinsipləri”, “Mal və nəqliyyat vasitələrinin buraxılış vaxtının ölçülməsi”, “VAİS-in qurulması prinsipləri” və “Gömrük xidmətinin modernləşdirilməsi” mövzularında iştirakçılara ətraflı məlumat verildi, onları maraqlandıran suallar cavablandırıldı. Tacikistan Gömrük Xidmətinin sədr müavininin də qatıldığı treninqdə həmçinin Azərbaycanda gömrük nəzarətinin təşkili, həyata keçirilməsi və digər mövzularda videoçarxlar nümayiş olundu və iştirakçılar arasında qrup işləri aparıldı: “Qırğızıstanda isə nümayəndə heyətimiz əvvəlcə bu ölkənin gömrük xidmətinin sədr müavini Ş.Berdaliyev ilə görüşərək qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr apardı. Sonra Qırğızıstan gömrük əməkdaşları və digər aidiyyəti dövlət qurumlarının əməkdaşları üçün treninq təşkil olundu. Daha sonra Azərbaycan tərəfi Qırğızıstan və Tacikistan arasında ən böyük “Gülostan” gömrük sərhəd-keçid məntəqəsində monitorinq apardı. Monitorinqin nəticələri azərbaycanlı mütəxəssislər tərəfindən təhlil olunduqdan sonra Qırğızıstan və Tacikistan gömrük xidmətlərinə təqdim ediləcək”.

Onu da qeyd edək ki, qırğız və tacik gömrükçüləri azərbaycanlı həmkarlarının peşəkarlığını yüksək qiymətləndirib və treninqdə təqdim edilən Azərbaycan modelini xalqlarımızın tarixi bağlılığı, eləcə də uzun müddət eyni formasiyada yaşamaları baxımından ölkələri üçün ən məqbul variant hesab ediblər. Üstəlik, hər iki ölkə ilə Azərbaycan arasında əməkdaşlıq və qarşılıqlı yardıma dair hökumətlərarası razılaşmaların olması təcrübə mübadiləsinin hüquqi bazasını da təmin edir.

İqbal Babayev treninqin təşkilinə görə Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatına təşəkkürünü də bildirdi. Onun fikrincə, bu tədbir Azərbaycan Gömrük Xidmətinin əldə etdiyi nailiyyətlərin tanıdılmasına, Azərbaycanla Qırğızıstan və Tacikistan arasında gömrük sahəsində əlaqələrin daha da inkişaf etməsinə, həmin ölkələrdə gömrük işinin daha səmərəli təşkilinə, gömrük sahəsində müasir texnologiyalara və proqram təminatına yiyələnməsinə, eyni zamanda beynəlxalq ticarətin asanlaşdırılmasına və iqtisadi sahədə tərəqqiyə öz töhfəsini verəcək.

Baş idarə rəisi onu da qeyd etdi ki, Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı Qırğızıstan və Tacikistan gömrük xidmətlərinin idarəetmə strukturunun modernləşdirilməsinə dəstək və yardım göstərilməsi üçün gələcəkdə Azərbaycan hökumətinə müraciət etməyi planlaşdırır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***